# Dövlətimizin qüdrəti, ölkəmizin imkanı, xalqımızın gücü ilə

## Qarabağ və Şərqi Zəngəzurda işğalın izlərindən əsər-əlamət qalmır

**Vətən müharibəsindən ötən dörd il ərzində işğaldan azad olunan ərazilərdə durmadan bərpa və yenidənqurma işləri aparılır. Əsas məqsəd Qarabağ və Şərqi Zəngəzuru ölkənin ən müasir və abad yaşayış zonasına çevirmək, dayanıqlı məskunlaşma üçün rahat yaşayış mühiti yaratmaqdır.**

Artıq Qarabağ və Şərqi Zəngəzurda Böyük qayıdış proqramı çərçivəsində xeyli iş görülüb. 30 il müddətində daşı-daş üstdə qalmayan şəhərlər yenidən qurulur, evlərin, binaların, məktəblərin, xəstəxanaların təməli qoyulur. Qısa müddətdə görülən işlər deməyə əsas verir ki, regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması nəzərdə tutulan vaxtda təmin ediləcək, özü də "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji" konsepsiyalarından istifadə olunmaqla. Bunu indiyəcən görülən işlər də sübut edir.

Görülən işlərə isə Prezident İlham Əliyev şəxsən özü müəlliflik və rəhbərlik edir. Dövlət başçısının regiona hər səfərində neçə-neçə sosial infrastruktur obyektinin təməlinin qoyulması, açılışının edilməsi, bölgənin sürətlə dirçəldilməsi istiqamətində işlərin fasiləsiz görüldüyünün göstəricisidir. Bu baxımdan 2024-cü ildə Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidənqurulması istiqamətində görülən işlər də istisna deyil. Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa edilmiş birinci tunelin, Şuşada "Şirin su" hamamının, Mamayı məscidinin istifadəyə verilməsi, Şuşada üçüncü yaşayış kompleksinin və Turşsu qəsəbəsinin təməlinin qoyulması, Laçın rayonunda "Zabux" və "Qarıqışlaq" Kiçik Su-Elektrik stansiyalarının işə salınması cari ildə görülən işlərin az bir hissəsidir. Çünki bunlardan əlavə bu il həmçinin Laçının Sus kəndində 60-a yaxın fərdi ev tikilib, 132 şagirdlik orta məktəb, 50 yerlik uşaq bağçası inşa olunub. Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı və Aşanlı kəndlərinin, Zəngilan rayonunun Mincivan qəsəbəsinin təməlləri qoyulub, "Zəngilan" və "Şayıflı" Su-Elektrik stansiyaları fəaliyyətə başlayıb, Ağdamın Tağıbəyli, Güllücə, Nəmirli və Şotlanlı kəndlərinin salınmasına start verilib, Xocalıda 180 mənzildən ibarət 15 bina doğma yurda köç etmiş sakinləri qoynuna alıb. Hələ ilin əvvəlində - mart ayında Xocalı rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov jurnalistlərə müsahibəsində demişdi: "Yenidənqurmaya yaramayan evlərin söküntüsü aparılır. Bununla da paralel olaraq tikinti işləri həyata keçirilir. Xocalıda 500-ə yaxın evdə təmir-tikinti, abadlıq işləri görülür. Yollar, qaz və sular çəkilir".

Sentyabrın 2-də Kəlbəcərə səfər edən dövlət başçısı bərpa və yenidənqurma işləri çərçivəsində Tərtər çayı üzərində 22,5 MVt gücündə "Yuxarı Vəng" Su-Elektrik Stansiyasının açılışını etmişdir. İşğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində strategiyaya uyğun olaraq tikilən bu stansiya Vətən müharibəsində zəfərdən sonra regionda yaradılan ən böyük "yaşıl enerji" mənbəyidir. "İstisu" mineral su zavodu, 110/35 kV-luq "İstisu" yarımstansiyası, 4,3 MVt gücündə "Zar" və 4,1 MVt gücündə "Toğanalı" kiçik su-elektrik stansiyaları da bu ilin yeni ünvanlarıdır. Üstəlik, Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin və inzibati binanın, həmçinin İstisu qəsəbəsinin təməlləri də 2024-cü ildə qoyulub.

2024-cü ildə Ağdam Sənaye Parkındakı yeni zavodların fəaliyyətə başlaması işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi fonunda Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin məşğulluğunun artırılması deməkdir. Dövlət başçısının təməllərini qoyduğu Kəngərli və Eyvazxanbəyli kəndləri də bu ilin bərpa və yenidənqurma tarixinə yeni səhifələr yazıb. Cəbrayıl şəhərində "Azərsun Holdinq" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin, "Hicaz quşçuluq" müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməllərini də Prezident qoymuşdur. Bunlardan savayı, Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin istifadəyə verilməsini, "Sarıqışlaq" Su-Elektrik Stansiyasının fəaliyyətə başlamasını da unutmaq olmaz.

Onu da qeyd edək ki, nəhəng vəsait və qüvvə tələb edən bu işləri Azərbaycan şəxsən öz imkanları hesabına həyata keçirir. Bu isə dövlətimizin qüdrətini, ölkəmizin imkanını və xalqımızın gücünü göstərir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

